**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru professor Ceyran Mahmudovaya**

**Hörmətli Ceyran xanım,**

Sizi və rəhbərlik etdiyiniz Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin bütün kollektivini bu qocaman təhsil ocağının 100 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirik.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin respublikamıza rəhbərliyinin bütün dövrlərində milli mədəniyyətimizə xüsusi diqqət və qayğı sayəsində sahənin inkişafı üçün daim lazımi şərait yaradılmışdır.

Bakı Teatr Məktəbindən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə qədər böyük inkişaf yolu keçmiş bu sənət məbədi mədəniyyət və incəsənət sahəsində yüzlərlə yüksəkixtisaslı kadrların hazırlanmasında xüsusi rolu vardır. Böyük tarixə, zəngin ənənələrə malik Universitetdə Azərbaycan mədəniyyətinin tanınmış simaları, korifey sənətkarlarımız çalışmış, bu təhsil ocağının bir çox məzununun adı Azərbaycan mədəniyyəti tarixinə qızıl hərflərlə yazılmışdır.

Ölkəmizdə cərəyan edən mədəni proseslərdə yaradıcı mühitin formalaşmasında, peşəkar mütəxəssislərin hazırlanmasında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rolu əvəzolunmazdır. Universitetin bu gün bir sıra beynəlxalq birlik və assosiasiyaların üzvü olması beynəlxalq aləmdə yüksək nüfuzunun göstəricisidir.

Yubiley ərəfəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Universitetin əməkdaşlarının yüksək mükafatlara, o cümlədən Sizin "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülməyiniz Azərbaycanda təhsilin və mədəniyyətin inkişafındakı xidmətlərinizə verilən yüksək qiymətdir.

**Hörmətli Ceyran xanım,**

Bir daha Sizi və Universitetin bütün kollektivini yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Azərbaycan mədəniyyətinin, incəsənətinin və təhsilinin inkişafında uğurlar arzulayırıq.

**Hörmətlə,**

**Mədəniyyət Nazirliyinin kollektivi**

*Bakı şəhəri, 15 dekabr 2023-cü il*